**Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq olunmuş insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır.

Hazırda Azərbaycanın yaşadığı yeni inkişaf mərhələsi insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Qarşıdan gələn illər üçün Azərbaycan Respublikasının normativ hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir.

Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin “Minilliyin inkişaf məqsədlərinin” və Avropa Şurasının 3-cü Zirvə Görüşünün insan hüquqlarının müdafiəsi və demokratiyanın, qanunun aliliyinin təmini sahəsində müəyyən etdiyi prioritetləri nəzərə alaraq, insan hüquqlarının müdafiəsi sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının icra hakimiyyəti orqanlarına tapşırılsın, Azərbaycan Respublikasının məhkəmələrinə və Baş Prokurorluğuna isə tövsiyə edilsin ki, normativ hüquqi aktların tətbiqi zamanı Azərbaycan Respublikasının insan hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyinin tələblərinə riayət olunmasına nəzarəti gücləndirsinlər.

3. Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin ki, qanun layihələrinin hazırlanması və qanunların qəbul edilməsi zamanı Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərdə əks etdirilmiş insan hüquq və azadlıqları əsas meyar kimi rəhbər tutsun və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunu təmin etsin.

4. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə və Ali Məhkəməsinə tövsiyə edilsin ki, insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqini təmin etsinlər.

5. Milli Fəaliyyət Planında göstərilən icra orqanlarına tapşırılsın ki, Milli Fəaliyyət Planının həyata keçirilməsinə yerli qeyri-hökumət təşkilatlarını cəlb etsinlər.

6. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2006-cı il
№ 1880

**Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə**

**MİLLİ FƏALİYYƏT PLANI**[1]

| № | Tədbirlər | İcra müddəti | İcra orqanları |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| I. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi sahəsində fəaliyyət | | | |

| | | | |
|---|---|---|---|
| 1. | Qanun layihələrinin hazırlanması zamanı Azərbaycan Respublikasının Konstitusiyasında əks etdirilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması | Mütəmadi | Nazirlər Kabineti, *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası[2] |
| 2. | Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqlarına və azadlıqlarına dair beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi | Mütəmadi | Nazirlər Kabineti, *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası, Xarici İşlər Nazirliyi |
| 3. | Azərbaycan Respublikasının tərəfdar çıxmadığı insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq və regional konvensiyaların nəzərdən keçirilməsi və həmin sənədlərə ölkəmizin qoşulması istiqamətində tədbirlərin görülməsi | Mütəmadi | Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| 4. | Avropa Şurası ilə birlikdə "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna, Azərbaycan Respublikasının cinayət və seçki məcəllələrinə əlavələr və dəyişikliklərin, habelə "Alternativ xidmət haqqında", "Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsi haqqında" qanun layihələrinin hazırlanması | 2007-2008 | Müvafiq işçi qruplar |
| 5. | "Şübhəli və ya təqsirləndirilən şəxslərin həbsdə saxlanma yerlərində saxlanılması haqqında" qanun layihəsinin hazırlanması | 2008 | Müvafiq işçi qrup |
| **II. İnsan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq** | | | |
| 6. | BMT-nin insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış müvafiq qurumları ilə, həmçinin Avropa Şurası, ATƏT və digər beynəlxalq qurumlarla əməkdaşlıq strategiyalarının hazırlanması, həyata keçirilməsi və inkişaf etdirilməsi | 2007-2010 | Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi və aidiyyəti orqanlar |
| 7. | İnsan hüquqlarının təmin olunması sahəsində beynəlxalq təşkilatlarla (BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı, ATƏT, Avropa Şurası və digər ixtisaslaşdırılmış qurumlar), habelə milli təsisatlarla birgə layihələrin təşviq olunması və səmərəliliyinin artırılması | 2007-2010 | Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və aidiyyəti orqanlar[3] |
| 8. | Azərbaycan Respublikasının BMT-nin ixtisaslaşdırılmış Komitələrinə verilən hesabatlarının hazırlanması işinə insan hüquq müdafiəsi sahəsində fəaliyyət göstərən əlaqədar qeyri-hökumət qurumlarının cəlb edilməsi | Mütəmadi | Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi |
| 9. | BMT-nin "Minilliyin inkişaf məqsədləri" nin təbliği və həyata keçirilməsi üçün BMT-nin İnsan Hüquqları Şurası ilə səmərəli əməkdaşlıq mexanizminin işlənib hazırlanması və əlaqələrinin yaradılması | 2007 | Xarici İşlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| **III. Əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlər** | | | |

| | | | |
|---|---|---|---|
| 10. | Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının dünya ictimaiyyətinə çatdırılması və onlara dəymiş zərərin Ermənistan dövləti tərəfindən ödənilməsi məqsədilə beynəlxalq təşkilatlarda məsələnin qaldırılması | 2007-2009 | Prezidentin Administrasiyası, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və aidiyyəti orqanlar |
| 11. | Etnik azlıqların mədəni irsinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi | Mütəmadi | *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası, Nazirlər Kabineti, Mədəniyyət ~~və Turizm~~ Nazirliyi, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyası [4] |
| 12. | Sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi | Mütəmadi | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi [5] |
| 13. | Xarici ölkələrdə cəza çəkən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasında cəza çəkən xarici ölkə vətəndaşlarının cəzalarının qalan hissəsinin çəkilməsi üçün vətəndaş olduqları ölkəyə verilməsinə dair bağlanmış müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi və müvafiq təhlillərin aparılması | Mütəmadi | Ədliyyə Nazirliyi |
| 14. | Azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və rejiminin beynəlxalq təcrübəyə müvafiq olaraq humanistləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi | 2007-2009 | Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi |
| 15. | Azadlıqdan məhrum edilmiş şəxslərin beynəlxalq standartlara uyğun saxlanılması məqsədilə yeni penitensiar müəssisələrin inşa edilməsi işinin davam etdirilməsi | 2007-2010 | Ədliyyə Nazirliyi |
| 16. | Azadlıqdan məhrum edilmiş şəxslərin islah edilməsinə ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının cəlb edilməsi və ictimai nəzarət mexanizmlərinin tətbiq olunması, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi | 2007-2009 | Ədliyyə Nazirliyi |
| 17. | Qadınlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkil edilməsi | Mütəmadi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə Nazirliyi |
| 18. | Azərbaycan Respublikasının tərəfdar çıxdığı, BMT-nin Mülki və siyasi hüquqlar, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktlardan, Uşaq hüquqları haqqında, Qadınlara münasibətdə ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyalardan, habelə Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyaya İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokoldan irəli gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsi və həmin sənədlərə riayət olunmasının təmin edilməsi | 2007-2008 | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Milli Təhlükəsizlik Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| 19. | Uşaq əməyinə dair müvafiq beynəlxalq konvensiyalardan, həmçinin Beynəlxalq Əmək Təşkilatının sənədlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsi üzrə tədbirlərin gücləndirilməsi | Mütəmadi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| 20. | Yetkinlik yaşına çatmayanların baxımsızlığı ilə mübarizə və sosial reabilitasiyası sahəsində QHT və beynəlxalq təşkilatlarla əməkdaşlıq | Mütəmadi | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 21. | Əhalinin hüquqi yardım almaq hüququndan daha səmərəli istifadə etməsinə kömək etmək məqsədilə və həmçinin hüquq fakültəsi tələbələrinin peşə vərdişlərinə yiyələnməsi məqsədilə ali təhsil müəssisələrinin hüquq fakültələri nəzdində "Hüquq Klinikalarının" yaradılması və fəaliyyətlərinə kömək göstərilməsi | 2007-2010 | Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| **IV. Dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsi sahəsində tədbirlər** | | | |
| 22. | Şəxsin tutulması, həbs edilməsi, müvəqqəti saxlanma yerlərində və istintaq təcridxanalarında saxlanması zamanı qanunvericiliyin tələblərinin, insan hüquqlarının pozulması, pis rəftar, vəzifədən suiistifadə və digər bu kimi halların ciddi araşdırılması, qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi | Mütəmadi | Baş Prokurorluq |
| 23. | Korrupsiya ilə mübarizənin gücləndirilməsi potensialının artırılması, milli mexanizmlərin daha da inkişaf etdirilməsi, habelə bu sahədə institusional islahatların davam etdirilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsinin davam etdirilməsi | Mütəmadi | İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, *Maliyyə Monitorinqi Xidməti*, Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya[6] |
| 24. | Dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi və korrupsiyaya qarşı mübarizə üzrə növbəti illər üçün Milli Fəaliyyət Planının hazırlanması | 2007 | Müvafiq işçi qrup |
| 25. | Məhkəmə qərarlarının vaxtında və dəqiq icrasını təmin etmək məqsədilə icra tədbirlərinin səmərəliliyinin artırılması | 2007 | Ədliyyə Nazirliyi |
| 26. | Hakimlərin və hakimliyə namizədlərin, hüquq mühafizə orqanları əməkdaşlarının və vəkillərin tədrisində insan hüquqları sahəsində beynəlxalq konvensiyalarla bağlı mövzuların geniş istifadə edilməsi | Mütəmadi | Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluq, *Dövlət Təhlükəsizliyi Xidməti*, Daxili İşlər Nazirliyi, Vəkillər Kollegiyası[7] |
| 27. | İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun məhkəmə təcrübəsində nəzərə alınması məqsədilə tədbirlərin keçirilməsi | Mütəmadi | Məhkəmə-Hüquq Şurası |
| 28. | İnsan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tətbiqi üzrə araşdırma və tədqiqatların aparılması | Mütəmadi | Ədliyyə Nazirliyi, *Azərbaycan* Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu[8] |
| 29. | Azərbaycan Respublikasında vəkillik institutunun gücləndirilməsi, fəaliyyətinin səmərəliliyinin artırılması və müstəqilliyinin təmin edilməsi, habelə əhalinin hüquqi yardım almaq imkanının təmin edilməsi məqsədilə bölgələrdə peşəkar vəkillərin sayının artırılması | 2007-2008 | Vəkillər Kollegiyası |
| 30. | Seçki komissiyaları üzvləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların keçirilməsi və seçkilərin aparılmasına dair maarifləndirmə işinin aparılması | Mütəmadi | Mərkəzi Seçki Komissiyası və aidiyyəti orqanlar |
| 31. | Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələrin yaradılması və inkişaf etdirilməsi | Mütəmadi | *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, *Dövlət Təhlükəsizliyi Xidməti*, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| **V. İnsan hüquqları sahəsində tədris, maarifləndirmə, elmi-analitik və əməkdaşlıq tədbirləri** | | | |
| 32. | BMT-nin Baş Məclisi tərəfindən bəyan edilmiş "İnsan hüquqları sahəsində maarifləndirmə" və "İnsan hüquqları sahəsində təhsil", YUNESKO-nun "Davamlı inkişaf naminə təhsil" onilliklərinə uyğun insan hüquqları üzrə tədris vəsaitlərinin hazırlanması | 2007-2008 | Təhsil Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu |

| | | | |
|---|---|---|---|
| 33. | Orta və ali məktəblərdə insan hüquqlarının tədrisinə diqqətin artırılması, bu məqsədlə tədris proqramlarının təkmilləşdirilməsi | 2007-2008 | Nazirlər Kabineti, Təhsil Nazirliyi |
| 34. | Məktəblilər və tələbələr üçün insan hüquqlarına dair olimpiadaların, müsabiqələrin keçirilməsi, insan hüquqlarının tətbiqinə dair bədii sərgilərin, festivalların və digər tədbirlərin keçirilməsi | Mütəmadi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət ~~və Turizm~~ Nazirliyi [9] |
| 35. | İnsan hüquqları ilə bağlı dərs vəsaitlərinin və ədəbiyyatların hazırlanması və nəşri | 2007-2008 | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu |
| 36. | İnsan hüquqları tədrisinin adi və interaktiv üsullarla həyata keçirilməsi, bu prosesdə xüsusi metodikanın hazırlanması | 2007-2008 | Təhsil Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu |
| 37. | Ali təhsil və elm ocaqlarında insan hüquqları və azadlıqları problemlərinə dair elmi-tədqiqat işlərinin aparılması | Mütəmadi | Təhsil Nazirliyi, *Azərbaycan* Milli Elmlər Akademiyası |
| 38. | YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, hüquqi maarifləndirmə işinin genişləndirilməsi və insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə insan hüquqlarının müxtəlif kateqoriyaları üzrə (mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar) əhalinin müxtəlif qrupları (qadınlar, uşaqlar, gənclər, əlillər, ahıllar, qaçqın və məcburi köçkünlər, məhkumlar, hərbi qulluqçular, narkomaniya və HİV/AİDSə yoluxmuş insanlar) üçün həmin qrup və yerli icmaların köməyindən istifadə etməklə hüquqi maarifləndirmə sahəsində müəllimlərin, məruzəçilərin, təlimatçıların hazırlanması | 2007-2008 | Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi və aidiyyəti orqanlar |
| 39. | Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrıseçkiliyin qadağan edilməsi, sülh və dözümlülük mədəniyyətinin təbliği məqsədilə Azərbaycan Respublikasının şəhər və rayonlarında maarifləndirmə tədbirlərinin keçirilməsi | Mütəmadi | Nazirlər Kabineti, *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası, Ədliyyə Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi və aidiyyəti orqanlar |
| 40. | Hüquqi maarifləndirmə məqsədilə müxtəlif çap məhsullarının - kitabların, bukletlərin, bülletenlərin hazırlanması, plakatların nəşr edilməsi və əhali arasında yayılması işinin təşkili | 2007 | Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu |

| | | | |
|---|---|---|---|
| 41. | İnsan hüquqları üzrə ixtisaslaşan dövlət qurumlarının əməkdaşlarının mütəmadi olaraq bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi prosesinə cəlb edilməsi və mənimsənilmiş müsbət təcrübənin yayılması | Mütəmadi | *Azərbaycan Respublikası Prezidentinin* Administrasiyası, Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Prokurorluq Orqanları, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və aidiyyəti orqanlar[10] |
| 42. | İnsan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin qarşısının alınması, mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın gücləndirilməsi mövzularında beynəlxalq tədbirlərin (dəyirmi masa, seminar, konfrans və s.) həyata keçirilməsi | 2007-2010 | Nazirlər Kabineti, Prezidentin Administrasiyası, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |
| 43. | İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycan dilinə tərcümə edilməsi | Mütəmadi | İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi və aidiyyəti orqanlar |
| 44. | İnsan hüquqları sahəsində beynəlxalq sənədlərin, xüsusilə İnsan Hüquqlarına dair Avropa Konvensiyasının dövlət qulluqçuları, məhkəmə, prokurorluq, polis orqanlarının əməkdaşları, Ombudsman Aparatının və regional mərkəzlərinin işçiləri, bələdiyyə üzvləri, vəkillər və hüquq sahəsində ixtisaslaşan ali təhsil müəssisələrinin müəllimləri tərəfindən öyrənilməsinin təşkil olunması, müvafiq təhsil müəssisələrinin ədəbiyyat fondunun zənginləşdirilməsi | 2007-2008 | Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Baş Prokurorluq, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman), Vəkillər Kollegiyası |
| 45. | İnsan hüquqları sahəsində ixtisaslaşmış milli və beynəlxalq elmi tədqiqat və tədris müəssisələri ilə əməkdaşlığın təkmilləşdirilməsi | Mütəmadi | Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu |
| 46. | İnsan hüquqları üzrə ixtisaslaşmış kitabxananın yaradılması | 2007 | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Milli Elmlər Akademiyasının İnsan hüquqları üzrə Elmi Tədqiqat İnstitutu |
| 47. | Kütləvi informasiya vasitələrində insan hüquqları sahəsində məsələlərin geniş işıqlandırılması, bu məqsədlə televiziya və radio saatlarının təşkili, qəzetlərdə hüquq guşəsinin yaradılması. KİV nümayəndələri üçün insan hüquqları sahəsində maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Mütəmadi | Nazirlər Kabineti, Prezidentin Administrasiyası, Mətbuat Şurası, Milli Televiziya və Radio Şurası |
| 48. | İnsan hüquqları üzrə ixtisaslaşan dövlət qurumlarının insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlar, onların nəticələri və digər məsələləri əks etdirən internet səhifələrinin yaradılması | 2007-2008 | Prezidentin Administrasiyası, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 yanvar 2008-ci il tarixli 705 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №1, maddə 9**)
2. 6 mart 2008-ci il tarixli 719 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №3, maddə 168**)
3. 21 dekabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncam **("Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287)**
4. 10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)**
5. 14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, № 101)**
6. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)**
7. 7 sentyabr 2016-cı il tarixli **1033** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 sentyabr 2016-cı il, № 197, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1470)**
8. 3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 mart 2017-ci il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 353**)
9. 4 fevral 2019-cu il tarixli **926** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 5 fevral 2019-cu il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 257)**
10. 29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 77)**

-

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1]-31 yanvar 2008-ci il tarixli 705 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №1, maddə 9**) ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın "İcra orqanları" sütununun 7-ci, 23-cü və 41-ci bəndlərində "**Dövlət Qulluğu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası**" sözləri "**Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 1-ci, 2-ci, 10-cu, 11-ci, 31-ci, 39-cu, 41-ci, 42-ci, 47-ci və 48-ci bəndlərinin "İcra orqanları" sütununda "**Prezidentin İcra Aparatı**" sözləri "**Prezidentin Administrasiyası**" sözləri ilə əvəz edilmişdir.

**[2]**-29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 77)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 1-ci, 2-ci, 31-ci, 39-cu, 41-ci və 47-ci hissələrin "İcra orqanları" sütununda "**Prezidentin**" sözü "**Azərbaycan Respublikası Prezidentinin**" sözləri ilə əvəz edilmişdir.

[3]-6 mart 2008-ci il tarixli 719 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №3, maddə 168**) ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 7-ci bəndində "İcra orqanları" sütununda "**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi,**" sözlərindən sonra "**Dövlət Miqrasiya Xidməti,**" sözləri əlavə edilmişdir.

**[4]**-29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 77)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 11-ci hissənin "İcra orqanları" sütununda "**Prezidentin**" sözü "**Azərbaycan Respublikası Prezidentinin**" sözləri ilə əvəz edilmişdir və həmin hissədən "**və Turizm**" sözləri çıxarılmışdır.

**[5]**-14 may 2014-cü il tarixli **164** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 16 may 2014-cü il, № 101)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 12-ci və 23-cü bəndlərində "**İqtisadi İnkişaf**" sözləri "**İqtisadiyyat və Sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Respublika" qəzeti, 17 avqust 2016-cı il, № 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 8, maddə 1384)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 12-ci və 23-cü bəndlərindən "**və Sənaye**" sözləri çıxarılmışdır.

[6]-21 dekabr 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncam **("Azərbaycan" qəzeti 25 dekabr 2009-cu il, № 287)** ilə Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 23-cü bəndinin "İcra orqanları" sütununda "**Milli Bank**" sözləri "**Mərkəzi Bank, Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

7 sentyabr 2016-cı il tarixli **1033** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 8 sentyabr 2016-cı il, № 197, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 9, maddə 1470)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 23-cü hissəsinin "İcra orqanları" sütununda "**Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti**" sözləri "**Maliyyə Bazarlarına Nəzarət Palatası**" sözləri ilə əvəz edilmişdir.

4 fevral 2019-cu il tarixli **926** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 5 fevral 2019-cu il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, №2, maddə 257)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 23-cü hissəsinin "İcra orqanları" sütununda "**Maliyyə Bazarlarına Nəzarət Palatası**" sözləri "**Maliyyə Monitorinqi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

[7]–3 mart 2017-ci il tarixli **1275** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 mart 2017-ci il, № 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 3, maddə 353**) ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 26-cı və 31-ci hissələrində **"Milli Təhlükəsizlik Nazirliyi**" sözləri "**Dövlət Təhlükəsizliyi Xidməti**" sözləri ilə əvəz edilmişdir.

10 fevral 2010-cu il tarixli **216** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 1-ci, 2-ci, 10-cu, 11-ci, 31-ci, 39-cu, 41-ci, 42-ci, 47-ci və 48-ci bəndlərinin "İcra orqanları" sütununda "**Prezidentin İcra Aparatı**" sözləri "**Prezidentin Administrasiyası**" sözləri ilə əvəz edilmişdir.

**[8]**-29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 77)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 28-ci və 37-ci hissələrin "İcra orqanları" sütununa "**Milli**" sözündən əvvəl "**Azərbaycan**" sözü əlavə edilmişdir.

**[9]**-29 yanvar 2021-ci il tarixli **2461** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı **("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 77)** ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 34-cü hissənin "İcra orqanları" sütunundan "**və Turizm**" sözləri çıxarılmışdır.

[10]-6 mart 2008-ci il tarixli 719 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №3, maddə 168**) ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın 41-ci bəndində "İcra orqanları" sütununda "**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi,**" sözlərindən sonra "**Dövlət Miqrasiya Xidməti,**" sözləri əlavə edilmişdir.